AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

8 sentyabr 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 34 (3648)



100 il

# Həm güclüyük, həm də haqlı

İkili yanaşmalar tarixi həqiqətlərə kölgə sala bilməz

**Prezident İlham Əliyev: "Biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik..."**



Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmini istiqamətində Azərbaycanın atdığı addımların kulminasiya nöqtəsi 44 günlük Vətən müharibəsi oldu. Ərazi bütövlüyümüzü təmin etmək, dünyaya ədalətin gec də olsa qələbə çaldığını göstərmək üçün bu labüd idi. Düzdür, Ermənistanın məğlubiyyətdən sonra ötən müddət ərzində müharibə ritorikasını dəyişməyib və bəzi dövlətlərin şirin vədlərinə aldanaraq reallıqları dəyişdirmək istəyir. Ancaq bu çıxış yolu olmayacaq və regionda yeni müharibənin başlanması Ermənistanın məhvi ilə nəticələnəcək. Artıq Ermənistan iqtidarının ikili oyun oynaması beynəlxalq aləmdə də müsbət qəbul olunmur. Məsələn, baş nazir Nikol Paşinyan Brüssel formatında keçirilən son tədbirlərdə, eləcə də ölkəsində jurnalistlərə açıqlamalarında vurğulayır ki, Ermənistan həm də beynəlxalq aləmin Azərbaycan torpağı kimi tanıdığı, qəbul etdiyi Xankəndi də daxil olmaqla Qarabağı Azərbaycanın suveren ərazisi sayır.

### Separatizmə dəstək nəticə verməyəcək

Lakin erməni xisləti bu gerçəkliyin arxasında gizlənərək özünün çirkin planlarını davam etdirməyə çalışır - məsələn, Laçın dövlət sərhəd - buraxılış məntəqəsi ətrafında yaradılan "humanitar şou", BMT TŞ-ya edilən "şikayət", o cümlədən üçtərəfli Bəyanata zidd olaraq silahlı qrupların Qarabağdan çıxarılmaması bunu təsdiqləyir. Son günlərdə Azərbaycanın alternativ kimi Ağdam-Xankəndi yolundan istifadə ilə bağlı təklifinin Ermənistan və havadarları tərəfindən izaholunmaz aqresiya ilə qarşılanması başadüşüləndir. Ancaq onlar Azərbaycanın siyasi, iqtisadi və hərbi gücü qarşısında yenə də məğlub duruma düşəcəklər və bu qaçılmazdır.

### Qarabağ Azərbaycanın tarixi və suveren ərazisidir

Ölkəmizin dəyişməyən qəti mövqeyi erməni maraqlarına xidmət edənlərin iflasını reallaşdırıb - Qarabağ Azərbaycanın tarixi və suveren ərazisidir. Hətta 30 illik işğal dövründə belə bu fakt bir an da olsa özünün funksionallığını dəyişməmişdi. Bu gün də Qarabağdakı separatçı rejimin üzərindən oyun qurmağa çalışanlar, "humanitar" kod altında beynəlxalq təzyiq kampaniyası formalaşdırmaq istəyənlər anlamalıdırlar ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi heç bir bir zaman müzakirə mövzusu ola bilməz. Vətən müharibəsi Qarabağ məsələsini tarixin arxivinə yolladı və qazanılan Zəfər, bütövlükdə, torpaqlarımızın azadlığını təmin etdi.

# Prezident İlham Əliyev qəbullar keçirib

### Türk dövlətlərinin nazirləri Bakıdadır

Prezident İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları - Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Əli Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul edib.

### Əməkdaşlıq əlaqələrin inkişafına töhfə verir

Prezident İlham Əliyev sentyabrın 5-də Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, energetika sahəsində əməkdaşlığın çox yaxşı səviyyədə olduğu qeyd edilib. Slovakiya nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizə səfər edəcəyi məmnunluqla qeyd olunub və bunun həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağı bildirilib.

Görüşdə Slovakiyanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına töhfə verdiyi bildirilib.

### Rusiya XİN-in xüsusi nümayəndəsi Azərbaycana gəlib

Prezident İlham Əliyev sentyabrın 5-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib. Görüşdə regionda vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması barədə müzakirələr aparılıb.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət olunmasına baxmayaraq, onların bundan imtina etdiklərini diqqətə çatdırıb.

## Rəsmi xəbərlər

- Prezident İlham Əliyev sentyabrın 7-də Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Flora Fətula qızı Xəlilovanın "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev sentyabrın 6-da müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında fərman imzalayıb.
- Prezident İlham Əliyev sentyabrın 5-də Yeni Qubadlı – Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev sentyabrın 4-də "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun yaradılması haqqında sərəncam imzalayıb.

# Daxili İşlər Nazirliyində görüş keçirilib

Azərbaycan və Türkiyə respublikalarının daxili işlər nazirləri qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparıblar



Sentyabrın 7-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

*(Ardı 2-ci səhifədə)*

Azərbaycan beynəlxalq təhlükəsizliyə öz töhfəsini verir 2

Onlayn dələduzluqda niyyət... 3

Gənclər diqqət də görür, qayğı da 3

İstanbuldan qələbə ilə döndülər 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Baş nazir qərar imzalayıb

Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni avtomobil yolunun 129 kilometrlik hissəsinin ödənişli yol kimi müəyyən edilməsinə dair tədbirlər haqqında qərar verilib. Ödənişli avtomobil yolu ilə nəqliyyat vasitəsinin gedişi üçün avtomobil yolunun dərəcəsi, nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınacaq.

### Füzuliyə qayıdış davam edir

Sentyabr 7-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 102 nəfər köçürülüb. Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Füzuli şəhərində 95 ailənin, yəni, 349 nəfərin daimi məskunlaşması təmin edilib.

### Təxribatın qarşısı alınıb

Sentyabrın 7-si Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Xocavənd və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyindən bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

### Üç yüz beş nəfər mina qurbanı olub

İşğaldan azad olunmuş rayonlarda 2020-ci ilin noyabrından bu günədək 95 min hektardan çox ərazi minalardan təmizlənib.

Bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən bildirilib.

Qeyd edilib ki, bu vaxtadək 30 minə yaxın piyada əleyhinə mina, 17 minə yaxın tank əleyhinə mina və 40 mindən çox partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. İkinci Qarabağ müharibəsi bitdikdən sonra 305 nəfərin mina qurbanı olduğu, onlardan 57 nəfərinin həyatını itirdiyi, qalanlarının isə müxtəlif dərəcəli bədən xəsarətləri aldığı vurğulanıb.

### Yeniliklər turizm potensialını artırır

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü ilə bu il ərzində Heydər Əliyev Beynəlxalq Aeroportuna uçuşlar həyata keçirən xarici aviaşirkətlərin sırasına "WizzAir Malta", "Flyadeal", "Air Cairo" kimi aşağıbüdcəli aviadaşıyıcılar əlavə olunub.

Müvafiq xarici aşağıbüdcəli aviaşirkətlərin sayı 16-ya çatdırılacaq. Yaxın zamanda "IndiGo" (Hindistan), "Aegean Airlines" (Yunanıstan) və "Air Arabia Abu-Dhabi" (BƏƏ) aviaşirkətləri də Bakıya uçuşlar həyata keçirməyə başlayacaq. Bu da büdcəli səyahətlər üçün yeni perspektivlərin açılmasını və ölkəmizin daha da əlçatan, cəlbedici turizm məkanına çevrilməsi istiqamətində işlərin fəal şəkildə davam etdiyini göstərir.

### Poliklinikalarda yeni laboratoriyalar qurulur

TƏBİB-in tabeliyində fəaliyyət göstərən Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil olan tibb müəssisələrində müasir standartlara cavab verən yeni laboratoriyalar qurulur.

Bakı şəhəri üzrə ilkin səhiyyə xidməti göstərən 40-a yaxın tibb müəssisəsinin tam müasir avadanlıqlarla təmin edilməsi prosesi tamamlanıb və yeni laboratoriyalar fəaliyyətə başlayıb.

Yeni qurulan laboratoriyalar İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Xidmətlər Zərfinə daxil olan 731 növ laborator analizlərin tam və dəqiq şəkildə həyata keçirilməsinə imkan verir.

### Səyyar "ASAN xidmət" avtobusu Tərtərdə

"ASAN xidmət"in müasir texnoloji avadanlıqla təchiz edilmiş xüsusi avtobusu sentyabrın 4-dən başlayaraq Tərtər şəhərində sakinlərə səyyar xidmət göstərir. Tərtər şəhərinin mərkəzində, əhalinin gediş-gəlişinin sıx olduğu küçədə xüsusi yer ayrılıb. Burada xidmətlərin göstərilməsi üçün hər cür şərait yaradılıb.

Vətəndaşlara səyyar şəkildə ümumvətəndaş pasportalarının verilməsi və dəyişdirilməsi, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat fəaliyyəti, sürücülük vəsiqələrinin dəyişdirilməsi və digər xidmətlər göstərilir.

"ASAN xidmət"in səyyar avtobusu Tərtərdə sentyabrın 29-dək olacaq.

# Heydər Əliyev İli - 2023



Ümummilli lider zamanında ölkəmizi beynəlxalq münasibətlər sisteminə inteqrasiya etdirməklə, həm də sabitliyin yaranması, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin aparılması üçün çoxspekterli fəaliyyətin əsasını qoydu.

## Azərbaycan beynəlxalq təhlükəsizliyə öz töhfəsini verir

### Ölkəmiz transmilli cinayətkarlıqla və terrorçuluqla mübarizədə fəal mövqe tutur

*(Əvvəli ötən sayımızda)*

Aradan ötən illərdə müstəqilliyimizin qorunması, dövlətçiliyimizin daha da qüdrətlənməsi üçün görülən işlər öz bəhrəsini verdi. Azərbaycan regionun lider dövlətinə çevrilməklə, təhlükəsizlik baxımından diqqət çəkir. Bir çox mühüm siyasi görüşlərin, mötəbər tədbirlərin, dünya çempionatlarının ölkəmizdə keçirilməsi ənənəyə çevrilib. Beynəlxalq aləmin diqqət mərkəzində olan belə tədbirlərin gerçəkləşməsində ölkədə yaradılan sabitlik faktoru əhəmiyyət daşıyır.

Miqyas və nüfuzundan asılı olmayaraq, universal və regional beynəlxalq təşkilatların dünyada yaranan yeni təhdidlərlə mübarizədə əhəmiyyəti artır. Beynəlxalq təşkilatlar təhdidlərin aradan qaldırılmasına və ya onların qarşısının alınmasına yardım etməklə yanaşı, belə platformalarda iştirak dövlətimizin milli maraqlarının qlobal siyasətdə müdafiəsinə geniş imkanlar yaradır.

Ölkəmizin hüquq mühafizə orqanları narkotiklərə və cinayətkarlıqla mübarizə üzrə Avropa Təşkilatları, ATƏT, BMT-nin müvafiq qurumları, İnterpol, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Cənub-Şərqi Avropanın hüquq mühafizə mərkəzi, İqtisadi Əməkdaşlıq təşkilatı və digər beynəlxalq təşkilatlarla birgə fəaliyyətə üstünlük verir, onların zəngin təcrübəsindən, geniş texniki imkanlarından, informasiya resurslarından yararlanırlar. Son illər ərzində Daxili İşlər Nazirliyi ilə 40-a yaxın dövlətin aidiyyəti qurumları arasında çoxsaylı idarələrarası, hökumətlərarası sazişlər, memorandum və protokollar imzalanıb. Həmin beynəlxalq-hüquqi sənədlərin predmetini transmilli cinayətkarlığın müxtəlif növləri, narkotik vasitələrin, psixotrop maddələrin, silahların qanunsuz dövriyyəsi, terrorçuluq, insan alveri, qanunsuz miqrasiya, qaçaqmalçılıq və digər cinayətlərlə mübarizədə qarşılıqlı fəaliyyət əsasında məlumat və təcrübə mübadiləsinin, birgə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, polis təlim və təhsili sahəsində əməkdaşlıq məsələləri təşkil edir.

#### Beynəlxalq təcrübə öyrənilir

Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində korrupsiya və narkotiklərlə qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə və yol hərəkəti təhlükəsizliyi sahələrində beynəlxalq ekspertlərin, eləcə də yerli hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə seminarlar keçirilir.

Siyasi, iqtisadi, mədəni, sosial islahatlar nəticəsində ölkəmiz regional lider dövlətə və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib, dünyanın bütün beynəlxalq təsisatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Bu sırada Müstəqil Dövlətlər Birliyinin üzv ölkələri ilə birgə fəaliyyətə də diqqət yetirilir. MDB çərçivəsində hüquq mühafizə sahəsində fəaliyyəti uzlaşdıran əsas orqan Daxili İşlər Nazirləri Şurasıdır. Şura öz işini daim təkmilləşdirməklə birlik ölkələrinin polis qurumlarının fəaliyyətini müasir dövrün çağırışlarına və təhlükələrə qarşı effektiv koordinasiya edən kollektiv orqana çevrilib. Daxili işlər nazirlərinin dostluq, işgüzar şəraitdə keçən vaxtaşırı görüşləri cinayətkarlıqla onun mütəşəkkil və transmilli növləri üzrə aktual problemlərin təşkilati həllinə etibarlı zəmin yaradır. Birgə iş təcrübəsi regionun təhlükəsizliyini təhdid edə biləcək hadisələrin dinamikasına daha geniş miqyasda baxmağa, baş verən dəyişiklikləri proqnozlaşdırmağa və onlara vaxtında reaksiya verməyə imkan yaradır. Birlik ölkələrinin Daxili İşlər nazirliklərinin əməliyyat xidmətləri sıx əlaqədə bir çox rezonans doğuran ağır cinayətləri açır, transmilli kriminal qrupları aşkar edib, zərərsizləşdirir, təhlükəli cinayətkarları yaxalayır, onların ekstradisiya məsələlərini həll edir.

Sabitlik və təhlükəsizlik dövlətin və cəmiyyətin inkişafı üçün əsas şərtdir. Hər kəs Azərbaycanın timsalında əyani şəkildə görür ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var.

*İlham Babayev*
*polis polkovniki*

## Daxili İşlər Nazirliyində görüş keçirilib

### Azərbaycan və Türkiyə respublikalarının daxili işlər nazirləri qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparıblar

*(Əvvəli 1-ci səhifədə)*



Azərbaycanda mövcud olan sabitliyin əhəmiyyətini xüsusi qeyd edən nazir bildirib ki, asayişin və təhlükəsizliyin etibarlı qorunması vətəndaşlarımızın, o cümlədən türkiyəli iş adamlarının ölkəmizin iqtisadiyyatına sərmayə qoymalarına və əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Nazir Azərbaycan Polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də nəzərə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsinə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb və cənab Ali Yerlikayanın şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

Nazir cənab Ali Yerlikayanın Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə də müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.

O, həmçinin iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olunub.

# Gənclər diqqət də görür, qayğı da

## Dünən səngərdə Vətənin, bu gün sabitliyin keşiyindədirlər



**İdmanda, təhsildə, bir sözlə, həyatın bütün sahələrində bacarıqlarını inkişaf etdirmək istəyənlərin üzünə bütün qapılar açıqdır. Bu gün gənclərin irəli çəkilməsi dövlətin ali dəyərlərinin ifadəsidir.**



44 günlük Vətən müharibəsində Müzəffər Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və komandanlığı altında əldə olunan tarixi qələbəmiz bir daha sübut etdi ki, mübariz Azərbaycan gəncliyi Vətənimizi qorumağa və bu yolda canından keçməyə daim hazırdır.

Bu gün dövlətimizin dəstəyi Azərbaycan gənclərinə bütün arenalarda uğur qazanmaq üçün geniş imkanlar yaradıb. DİN rəhbərliyi tərəfindən də gənclərə, xüsusən də müharibə iştirakçılarına, şəhid ailə üzvlərinə xüsusi dəstək və qayğı göstərilir. Onlar daxili işlər orqanlarında xidmətə qəbul olunur, Vətənə, xalqa xidmət edirlər.

Məhz belə gənclərdən bir də Vətən müharibəsi iştirakçısı Hikmət Azad oğlu Ramazanovdur. H.Ramazanov 1999-cu ildə Bakıda doğulub. O, Zəngilan rayon 6 nömrəli tam orta məktəbin məzunudur. 2016-2020-cı illərdə Azərbaycan Texniki Universitetində təhsil alıb. Ali məktəbi başa vurduqdan sonra hərbi xidmətə yollanıb.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində H.Ramazanov Cəbrayılın və Qubadlının düşmən işğalından azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərib. Düşmən üzərində qazandığımız Zəfərdən sonra Şuşa, Xocavənd və Qubadlı rayonlarının müdafiəsində xidmətini davam etdirib.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalına layiq görülüb.

Polis serjantı H.Ramazanov sıralarımızda 2022-ci ildən xidmət edir, Nəsimi RPİ 19-cu Polis Şöbəsinin əməkdaşıdır.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Seminar məşğələ keçirilib

## Peşəkarlığın artırılması qarşıya qoyulan məqsəddir

DİN Baş Kadrlar İdarəsinin təşkilatçılığı ilə "Nazirliyin kadr siyasəti və 2023-cü tədris ilində şəxsi heyətin xidməti və döyüş hazırlığının təşkili xüsusiyyətləri" mövzusunda keçirilən virtual seminar-məşğələdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının DİN-in baş idarə, idarə və xidmətlərinin, təhsil müəssisələrinin, Bakı və Gəncə şəhər BPİ-lərinin, şəhər, rayon, nəqliyyatda polis orqanlarının, nizami polis hissələrinin əməkdaşları iştirak edib. Məşğələdə DİN-in kadr siyasətindən irəli gələn vəzifələr müzakirə mövzusu olub.

Seminarda daxili işlər orqanları əməkdaşlarının peşəkarlığının artırılması, kadrların seçilib yerləşdirilməsi, "AKİS" proqramına məlumatların daxil edilməsi, xidmətkeçmə sahələrində yol verilən nöqsanlar və qarşıda duran vəzifələr barədə ətraflı danışılıb. Əməkdaşlar arasında sağlam həyat tərzinin təbliği, peşə və fiziki hazırlığının artırılmasına şüurlu münasibətin formalaşdırılmasında şəxsi heyətin mənəvi-psixoloji hazırlığı istiqamətində görülən işlər barədə qarşılıqlı dialoq aparılıb.

*A.Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Narkokuryerlər ifşa olunur...

## Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə davam edir

Xəzər Rayon Polis İdarəsinin əməkdaşlarının narkotik vasitələrin satışını təşkil edən şəxslərə qarşı həyata keçirdikləri əməliyyat tədbiri zamanı əvvəllər məhkum olunmuş 1997-ci il təvəllüdlü Ceyhun Hüseynov və 1979-cu il təvəllüdlü Zakir Əhmədov saxlanılıblar. Onlardan 4 kiloqramdan artıq narkotik vasitə heroin aşkar edilib. Saxlanılanlar narkotik vasitələri sosial şəbəkələrdə tanış olduqları İran vətəndaşından paytaxt ərazisində satmaq



məqsədi ilə əldə etdiklərini bildiriblər. İdarə əməkdaşlarının avqust ayında həyata keçirdikləri digər əməliyyatlar zamanı isə rayon ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 55, satışının təşkil edilməsi ilə bağlı 9 fakt aşkar edilib.

Qeyd edilən hallarla bağlı 61 nəfər saxlanılaraq barələrində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

◆◆◆

Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən avqust ayında narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı keçirilən tədbirlər zamanı ümumilikdə 82 nəfər saxlanılıb. Həmin şəxslərdən 30 kiloqram heroin, marixuana və psixotrop maddə olan metamfetamin aşkar edilib.

◆◆◆

Cəlilabadda saxlanılan narkokuryerlərdən 13 kiloqramdan artıq müxtəlif növ narkotik vasitələr aşkarlanıb. Onlar həmin narkotik vasitələri satışının təşkil olunmasından ötrü paytaxt ərazisinə gətirmək tapşırığı alıblar. Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Salyan rayon sakini Bəhruz Hüseynov və Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş Cavid Bayramov saxlanılıblar. Cəlilabad şəhəri ərazisində saxlanılan həmin şəxslərdən 5 kiloqram 300 qram heroin, 8 kiloqram 300 qram marixuana, əlavə olaraq metamfetamin və 100 ədəd metadon həbi aşkarlanaraq götürülüb. Araşdırma zamanı B.Hüseynov və C.Bayramovun şəxsiyyəti istintaqla araşdırılan İranda yaşayan narkotacir tərəfindən narkokuryerliyə cəlb edildikləri müəyyən edilib.

### Zəhər dolu "Opel"

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində xarici ölkə vətəndaşı tərəfindən pul müqabilində narkokuryerliyə cəlb edilən şəxs tutulub.

Qeyd edilən cinayət əməli ilə məşğul olmaqda şübhəli bilinən Bakı şəhər sakini Cavid Mustafayevin sərnişin qismində əyləşdiyi "Opel" markalı avtomobilə keçirilən baxış zamanı nəqliyyat vasitəsindən təmiz çəkisi 1 kiloqram 400 qram olan narkotik vasitə - heroin və 50 qrama yaxın psixotrop maddə olan metamfetamin aşkar edilərək götürülüb.

### Dağlarda əməliyyat, narkotik plantasiyası və odlu silahlar

Balakən rayonunda Daxili İşlər Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilən birgə əməliyyat zamanı çətin relyefli dağ-meşə massivində narkotik plantasiyası salan, dövlətlərarası axtarışda olan, oğurluq edən və üzərində qanunsuz odlu silah-sursat gəzdirən ümu-



milikdə 9 nəfər tutulub.

Yerləri müəyyən edilən narkotik plantasiyasından çəkisi 350 kiloqrama yaxın 568 ədəd çətənə kolu, eləcə də külli miqdarda narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb.

Həmçinin 1-i "RPK" markalı pulemyot olmaqla ümumilikdə 8 odlu silah, 290 ədəd patron və 4 əl qumbarası götürülərək aidiyyəti üzrə təhvil verilib.

### Qubada son 3 ayda narkotiklərlə bağlı 46 nəfər saxlanılıb

Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən son 3 ay ərzində rayon ərazisində narkotiklərlə bağlı keçirilən əməliyyatlar zamanı 70 fakt üzrə narkotik vasitələrin əldə edilməsi, daşınması, qanunsuz dövriyyəsi, satışı, narkotik tərkibli bitkilərin kultivasiyası və psixotrop maddələrin dövriyyəsi ilə məşğul olan ümumilikdə 46 nəfər saxlanılıb.

Qanunsuz dövriyyədən ümumilikdə 11 kiloqrama yaxın marixuana, 5 kiloqrama yaxın heroin, psixotrop maddə metamfetamin və metadon həbləri, yaş halda çəkisi 37 kiloqram olan 95 ədəd çətənə kolu çıxarılıb.

# Onlayn dələduzluqda niyyət...

## Vətəndaş öz əmlakına biganə yanaşdıqda talamaya məruz qalma riski artır

**Dələduzluğa məruz qalmamaq üçün nə etməliyik? Diqqətli olmalıyıq, hər deyilənə, hər vədə inanmamalıyıq. Əgər o adamı heç tanımırıqsa...**

Sosial şəbəkələrdə qarşıma çıxan görüntüdə vətəndaş gördüyünü maraqlı şəkildə izah edir və düşüncələrini bölüşürdü: "Əgər biz sosial şəbəkə üzərindən tanımadığımız birinin şirin vədinə aldanıb kart nömrəmizi veririksə və sonradan kömək üçün aidiyyəti orqanlara üz tuturuqsa, deməli, qəbahət özümüzdədir. Çünki üzünü belə görmədiyimiz insanlara etibarımız bizləri çıxılmaz vəziyyətdə qoyur. Çıxış yolu isə bəzən tapılmır"... Və ən maraqlısı, onun dələduzlara aldanmamaq üçün elə sosial şəbəkələr üzərindən polisin vətəndaşlara uyarısını xatırlatması onunla həmrəy olanların "layk"larının çoxluğu ilə müşahidə olunurdu…

### Polis maarifləndirmənin bütün formalarından istifadə edir

İstənilən mövzuda hüquqi yardımla, maarifləndirmə ilə bağlı axtarış versək, orada polisin dəst-xəttini görəcəyik. Əməl edənlərə gəlincə…

Sosial şəbəkə istifadəçisinin "Gördüyümüz, bildiyimiz, lakin əməl etmədiyimiz həqiqətləri polis bizlərə hər gün xatırladırsa" fikri vətəndaşın da deyilənlərə əməl etməsinə borclu olduğu gerçəkliyini ortaya qoyurdu. Cinayətkarlıqla qətiyyətli mübarizə ilə yanaşı, maarifləndirmə ilə daha böyük uğurlara necə imza atmaq olar tezisi üzərində mütəmadi işləyən polis onun hüdudlarını genişləndirməklə istədiyinə nail olur. Bu, törədilən cinayətlərin statistikasında da özünü göstərir.

### "Polis istəyir ki"...

Yenə də qayıdırıq sosial şəbəkə istifadəçisinin fikirlərinə: "Polis istəyir ki, bizim illərlə əziyyət çəkib, min bir zəhmətə qatlaşıb əldə etdiyimiz pulu, varı bir göz qırpımında kimlərsə talamasın. Polis deyir ki, evdən çıxarkən qapınızı asma qıfılla bağlamayın. Bu o deməkdir ki, siz evdə yoxsunuz. Oğrular da bundan istifadə edib oğurluğa cəhd edə bilərlər. Pul və qiymətli əşyalarınızı ailə üzvlərinizdən kənar şəxslər bilməməlidir. Azyaşlı ailə üzvlərinin, qohum və qonaqların evdə olduqları vaxt pul və qiymətli əşyaların saxlanc yerinə qoyulub-götürülməsi hallarına yol verilməməlidir. Evlərinizi və obyektlərinizin daimi stasionar qaydada mühafizəsini təmin etmək üçün mühafizə polisi ilə müqavilə bağlamaq, bu mümkün olmadıqda isə evlərinizin və obyektlərinizin ətrafına kamera quraşdırmaqla mühafizəni təmin etməyiniz məsləhət görülür"...

Polis cəmiyyətdə dəyişiklik etmək, uzun illər formalaşmış stereotiplərə qarşı mübarizə aparmaq üçün təbliğ etdiyi ideyanın dönüş yaradacağına inanır və bu inamla vətəndaş məmnunluğu naminə gecəli-gündüzlü xidmət aparır.

Bu gün cəmiyyəti arxasınca aparmaq gücünə malik olan texnoloji yeniliklər, xüsusən də sosial şəbəkələr vasitəsilə fəaliyyətimiz təqdir olunursa, bu, bizim uğurumuzdur. Onun davamlı olmasının əsas yolu yenə də maariflənmədən, maarifləndirməkdən keçir.

*T.Hafiz*

# Reydlər davam etdirilir

## Ətraf mühiti qorumaq hər birimizin borcudur

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi müvafiq qurumlarla birgə sanitar-gigiyena və ətraf mühitin mühafizəsi qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə Lerikdə tədbirlər həyata keçirib.

Tədbirlər zamanı təbii su hövzələrinə çirkab suların axıdılması, su obyektlərinin mühafizəsi qaydalarının pozulması və qanunsuz odun tədarükü faktları aşkar olunub. Faktlarla bağlı İnzibati Xətalar Məcəlləsinin 264.0.1-ci və 252-ci maddələrinin tələblərini pozan ümumilikdə, 4 vəzifəli və 1 fiziki şəxs barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

****

Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən də rayonun Gərəkli, Kortala, İtitala, Tülü, Talalar, Mahamalar və Püştətala kəndlərində sənaye və məişət tullantılarının qalaqlanması, eləcə də yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkar olunub.

Faktlarla bağlı adları qeyd olunan kəndlərin bələdiyyə sədrləri barədə protokol tərtib olunub.

# İstanbuldan qələbə ilə döndülər

## Məşqçi polisin yetirmələri bayrağımızı ucaldıb, himnimizi səsləndiriblər

**Avqustun 25-dən sentyabrın 2-dək İstanbulda kadet, yeniyetmə və gənclər arasında kikboks üzrə WAKO Avropa birinciliyi keçirilib.**



Bu yarışda Azərbaycan milli komandası tarixi uğura imza atıb. İdmançılarımız 16 qızıl, 16 gümüş, 31 bürünc medal əldə ediblər. Yarışda DİN İdman Cəmiyyətini təmsil edən 23 idmançıdan 17 nəfəri Vətənə qızıl, gümüş və bürünc medalla dönüb.

İdmançılarla yanaşı, məşqçilərimizin nəticələri də uğurlu olub. Belə ki, milli komandanın baş məşqçisi, polis baş serjantı Hikmət Hacıyev WAKO Avropa birinciliyinin ən yaxşı rinq məşqçisi - “BEST COACH” mükafatına layiq görülüb. Qeyd edək ki, sözügedən yarışda DİN İdman Cəmiyyətinin şöbə rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədovun da yetirmələri güclərini sınayıb, qələbə uğrunda mübarizə aparıblar. Yığmamız medal sıralamasında 7-ci, rinq döyüşlərində isə 1-ci yeri tutub. Qələbə münasibətilə kikboksçularımızı və həmkarlarımızı təbrik edirik.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Qaliblər mükafatlandırılıb

## Polis peşəkar olanda vətəndaş güvənci və rahatlığı hiss edir

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə idman tədbirlərinin davamı olaraq daxili işlər orqanlarının şəxsi heyəti arasında çoxnövçülük üzrə final mərhələsi keçirilib. Şağan Olimpiya İdman Kompleksində baş tutan yarışda daha öncə Bakı şəhər, eləcə də zona turnirlərinin qalibləri qatılıb.

İdmançılar proqramda müəyyən olunmuş güllə atıcılığı, üzgüçülük, 1000 metr məsafəyə qaçış və turnikdə dartınma üzrə normativləri yerinə yetiriblər. Normativlərin nəticəsinə görə aktivinə ən çox xal toplamış iştirakçılar yarışın qalibləri olub.

Güllə atıcılığı üzrə polis serjantı Elşad Nəsibov (ƏÇPA) I yeri, MAXE çavuş Rövşən Həsənov (DQ) II yeri, polis kapitanı Emil İbrahimov (BBPİ) III yeri tutub.



1000 metr məsafəyə qaçış üzrə polis serjantı Elşad Nəsibov (ƏÇPA I yer), İbrahim Məmmədov (ƏÇPA II yer) və polis serjantı Ramazan İsmayılov (ƏŞPA III yer) qələbəni bayram ediblər. Polis kapitanı Emil İbrahimov (BBPİ), polis serjantı Cavidan Cahangirov (Sumqayıt ŞPİ), polis serjantı Elşad Nəsibov (ƏÇPA) üzgüçülük növündə müvafiq olaraq I, II, III yerə layiq görülüblər. Çoxnövçülük yarışlarında isə polis serjantı Elşad Nəsibov (ƏÇPA I yer), polis kapitanı Emil İbrahimov (BBPİ II yer), polis serjantı Ramazan İsmayılov (ƏŞPA III yer) sevinən tərəflər olub.

Qaliblər münsiflər tərəfindən diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*Teymur Əlizadə*
*polis mayoru*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Müəmmalı qadın

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



**1828-ci ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli “Parisin sirləri”, “Oğru: əxlaq və psixologiya” əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun “Parisin sirləri”, “Oğru: əxlaq və psixologiya” əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər ötsə də, bu “konstitusiya” qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.**

*(Əvvəli ötən sayımızda)*

Oğrular öz aralarında məndən yaxa qurtarmaq üçün razılığa gəlmişdilər. Dəfələrlə onların qurbanına çevrilmək təhlükəsiylə üzləşmişdim. Amma fiziki gücüm və cəsarətli davranışımla yanaşı, şəxsi təhlükəsizliyimə diqqətli olmağım faydalı olurdu. Heç vaxt eyni saatlarda müəyyən olunan yerə getmirdim. Bilirdim ki, mənim məhv olmağım çox adama sərf edir. Bu, qeyri-adi tələlərdən qurtulmağa imkan verdi. Onların bir neçə cəhdinin boşa çıxması göstərmişdi ki, həyatımı heç də ucuz satmaq fikirində deyiləm.

### Musiqi müəlliməsi – şübhə edilməyən cinayətkar

Çox nadir hallarda olur ki, məhkum islah olunmaq niyyətilə qaçsın. Bir qayda olaraq o yalnız paytaxta tez çatmaq və həbsxanada öyrəndiyi məharətləri göstərmək fikirində olur. Belə ki, bizim həbsxanalar daha çox başqasının əmlakını mənimsəməyin öyrədildiyi məktəb rolunu oynayır. Demək olar ki, tanınmış oğruların çoxu özlərinin yüksək məharətini məhz həbsxanada uzun müddət qalaraq öyrəniblər. Öz bacarıqları ilə tanınan, müxtəlif vaxtlarda Parisdə olan bir çox oğrular 4-5 dəfə həbsdə yatıblar, Viktor Debua, Baraban ləqəbli oğrular kimi. Onlar müxtəlif vaxtlarda Parisdə xalq arasında çox danışılan əməllər törədiblər. Xalq arasında bu işlər haqqında cəsarət və qəhrəmanlıq kimi danışırdılar. Bu şəxslər uzun illər ərzində dəfələrlə həbsxana və katorqaya göndəriliblər, amma onlar hər dəfə qaçmağı bacarırdılar və Parisə gəlirdilər.

Polisə bu barədə məlumat verilmişdi və mən dərhal axtarışlara başladım. Əldə olunan məlumatlar göstərirdi ki, onların digər heç də az təhlükəli olmayan məhkumlarla əlaqələri var. Oğlu Noel tanınmış quldur olan musiqi müəlliməsindən şübhələnirdik. Bu qadının bütün cinayətkarlara sığınacaq verdiyi deyilirdi. Xanım Noel savadlı, təhsilliydi, onu qızlarına dərs deməyə dəvət edən orta sinif nümayəndələri arasında yaxşı, virtuoz musiqiçi kimi tanınırdı. O, Sen-Deni kvartalına dərs deməyə gedirdi. Zərif maneralar, gözəl danışmaq qabiliyyəti, bəzək-düzəkdə, paltarlarda zövqlü olması, hətta taleyin sürprizlərinin də silə bilmədiyi zəriflik və məğrurluq, deməyə əsas verirdi ki, inqilabdan sonra müflis olan çoxsaylı kübar ailələrdən birinə məxsusdur. Xarici görkəm cəhətdən xanım Noel çox maraqlı və balaca xanımıydı. Həmçinin onun taleyində mübhəm məsələ vardı, ərinin taleyi heç kimə məlum deyildi. Bəziləri deyirdi ki, o cavan yaşından dul qalıb, bəziləri isə deyirdi ki, əri onu atıb, yaxud məşuqu onu yoldan çıxarıb. Bilmirəm, bunlardan hansı həqiqəti əks etdirirdi, bilirdim ki, xanım Noel balaca, canlı, işvəli gözləri olan qaraşın xanımıydı, çox məlahətli səsi varıydı. Onda mələk və zalım ruhun keyfiyyətləri birləşmişdi, ikinci daha çox hiss olunurdu. Xanım Noel yalnız ədalət mühakiməsi ilə problemi olan şəxslərə qarşı mərhəmətli və qayğıkeşiydi, onları əsgər oğlunu qarşılayan ana kimi sevinclə qəbul edirdi. Onun xoş münasibətini görmək üçün yalnız sevimli oğlu Noel ilə bir çevrəyə malik olmaq lazım idi. Oğluna sevgidən, həm də özünün xarakterinə uyğun olaraq xanım Noel bu cür şəxslərə yardım etməyi sevirdi.

*(Ardı var)*

# Suallar: İstintaq sirrinin anlayışı və əsas əlamətləri nədir?

Azərbaycan Respublikası CPM-də “istintaq sirri” anlayışından istifadə olunmasa da, bu sahədə prosessual münasibətlərin hüquqi tənzimlənməsi həmin Məcəllənin “İbtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi” adlanan 22-ci maddəsinin müəyyənləşdirdiyi normalarla həyata keçirilir.

### Bəzən istintaq sirrinin yayılması müşahidə olunur?

Məcəllənin həmin maddəsinə əsasən, cinayət işi üzrə məhkəmə baxışınadək ibtidai araşdırma məlumatları yalnız ibtidai araşdırmanın maraqlarına zidd olmayan, habelə cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həcmdə yayıla bilər. Əgər yayılıbsa istintaq onu sirr hesab etmir.

### Praktikada istintaq sirrini (ibtidai araşdırma sirrini) təşkil edən məlumatlar dedikdə nə başa düşülür?

Cinayət və cinayət prosessual qanunvericiliklə qorunan, ibtidai araşdırmanın maraqlarını əks etdirən, konfidensiallığı təhqiqatçı, müstəntiq, yaxud ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən müəyyən edilən və ibtidai araşdırmanın maraqlarına real və ya potensial təhlükənin qarşısının alınması məqsədilə yayılmasına qadağa qoyulan məlumatlar başa düşülür.

### İstintaq sirrini (ibtidai araşdırma sirrini) təşkil edən məlumatlara nə daxildir?

-Təhqiqat orqanlarının əməkdaşlarına və cinayət prosesinin digər iştirakçılarına aid olan məlumatlar;
-İstintaq fərziyyələri, istintaq hərəkətlərinin aparılması taktikası, cinayət prosesi iştirakçıları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatlar;
-“İnformasiya əldə etmək haqqında” Qanunda göstərilən müddət ərzində xidməti istifadə üçün nəzərdə tutulmuş məlumatlar;
-Cinayət prosesi iştirakçılarının şəxsiyyəti, yaşadıqları yer və digər eyniləşdirmə əlamətləri haqqında məlumatlar;
-Müstəntiqlə təhqiqat orqanlarının qarşılıqlı əməkdaşlığı haqqında məlumatlar;
-Cinayət təqibi üzrə sübutlar, həmçinin sübut materiallarının təhlilinin nəticələri haqqında məlumatlar;
-Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı həyata keçirilən tədbirlər haqqında məlumatlar;
-Terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatlar;
-İxrac nəzarətinə aid sənəd və məlumatlar;
-Şəxsi və ailə sirrini təşkil edən məlumatlar;
-Dövlət sirrini təşkil edən məlumatlar;
-Peşə və kommersiya sirrini təşkil edən məlumatlar və s.

# Susuz sürücü sərxoşdan betərdir

## Hadisələrə səbəb kimi bu faktı mütəxəssislər də təsdiq edirlər



Susuzluqdan halsızlıq baş verdikdə, sürücü sükan arxasında vəziyyəti düzgün qiymətləndirə bilmir və bu da qəzaya səbəb olur.

Bu barədə endokrinoloq və dietoloqlar belə qənaətə gəliblər. Onlar belə vəziyyəti alkoqol intoksikasiyası ilə müqayisə edirlər.

Avropa Nəmləndirici İnstitutunun dərc etdiyi araşdırmaya görə, bədəndə kifayət qədər su olmayan sürücülər qanında 0,8 q/l spirt olan sürücülər kimi səhvlərə yol verirlər. Bu, dörd qədəh şəraba uyğun gəlir.

Mütəxəssislər susuzluqla üzləşən sürücülər arasında ən çox zolaqdan qeyri-ixtiyari çıxmalara və yaranan təhlükəli vəziyyətlərə gecikmiş reaksiyalara rast gəlindiyini bildirirlər. Bundan əlavə, susuzluq başgicəllənməyə və ən ekstremal hallarda avtomobil idarə edərkən huşun itirilməsinə səbəb ola bilər.

Bu səbəbdən yola çıxarkən su içmək vacibdir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik